# “Nizami dünyası” adlı intellektual müsabiqənin keçirilməsi barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi müdirinin əmri

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 12.03.2021-ci il tarixli F-56 nömrəli əmri ilə təsdiq edilmiş “Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinin keçirilməsi ilə bağlı Tədbirlər Planı”nın 6-cı bəndinin icrasını təmin etmək məqsədilə “Bakı Şəhəri üzrə Təhsil İdarəsi haqqında” Əsasnamənin 15.6-cı bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1.Bakı şəhəri ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında 2021-ci ilin may ayında “Nizami dünyası” adlı intellektual müsabiqə keçirilsin.

2. Müsabiqənin Əsasnaməsi və Təşkilat Komitəsinin tərkibi təsdiq edilsin (əlavə olunur).

3. Ümumi təhsil müəssisələrinin direktorları təqdim olunan Əsasnaməyə uyğun olaraq müsabiqənin məktəb mərhələsinin keçirilməsini təmin etsinlər və qalib şagird barədə məlumatı Təşkilat Komitəsinə təqdim etsinlər.

4. İnkişaf layihələri sektoru (S.Əzimova) və Ümumi təhsil sektoru (F.Babayev) müsabiqənin yüksək səviyyədə keçirilməsini təmin etsinlər.

5. Maliyyə və mühasibatlıq sektoru (E.Mehdiyeva) layihənin icrasından irəli gələn maliyyə məsələlərini həll etsin.

6. Təminat və təchizat sektoru (M.İbrahimov) layihənin icrasından irəli gələn təchizat məsələlərini həll etsin.

7. İctimaiyyətlə əlaqələr sektoru (B.Məmmədov) əmrin və Əsasnamənin İdarənin internet saytında yerləşdirilməsini və müsabiqənin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmasını təmin etsin.

8. Ümumi sektor (S.Rəsulova) əmrin əlavələrlə birlikdə çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

9. Əmrin icrasına nəzarət müdir müavini Hüseyn Əsgərova həvalə olunsun.

Əsas: Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 12.03.2021-ci il tarixli F-56 nömrəli əmri ilə təsdiq edilmiş “Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinin keçirilməsi” ilə bağlı Tədbirlər Planı.

***Mehriban Vəliyeva,***

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri***

***26 aprel 2021-ci il***

***№ F-100***

---

***Əsasnamə***

---